# HÜMBƏTOV FƏRHAD QƏMBƏR OĞLU



Hümbətov Fərhad 10 sentyabr 1968-ci ildə Qərbi Azərbaycanın Qarakilsə (Quqark) rayonunun Arçut kəndində doğulmuşdur. 1983-cü ildə burada orta məktəbin səkkizinci sinfini bitirmiş və Hamamlı (Spitak) rayonundakı texniki peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələnmişdir. 1986-cı ildə ordu sıralarına çağırılmış, hərbi xidməti əvvəlcə Çitada, sonra isə Monqolustanda keçmişdir. 1988-ci ildə İrkutsk şəhərində ordudan tərxis olunmuşdur. Məlum səbəbdən ailəsi ilə birlikdə Bakıya köçən F.Hümbətov Məişət Xidməti İdarəsində sürücü kimi fəaliyyətə başlamışdır. 1991-cı ilin oktyabr ayında cəbhəyə yollanaraq, könüllülərdən ibarət olan Şıx batalyonunda döyüşə atılmış, bir neçə kəndin azad olunmasında böyük şücaət göstərmişdir. 1992-ci ilin mart ayında Kosalar, Xankəndi istiqamətlərində uğurlu əməliyyatların iştirakçısı olmuş və düşmənin 5 postunu dağıtmışdır. Həmin il martın 29-da Fərhad öz dəstəsi ilə Xocalının Kosalar kəndində əməliyyat keçirir. Bu əməliyyat nəticəsində düşmən xeyli canlı qüvvə itirir. Dəstəyə kömək üçün əlavə qüvvə gəlmədiyinə görə geri çəkilmək məcburiyyətində qalırlar. O, bu döyüşdə bir neçə yaralını xilas edir və özü qəhrəmancasına həlak olur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hümbətov Fərhad Qəmbər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 2000-ci ildə Bakının Binəqədi rayonunda adına park salınmış və orada büstü qoyulmuşdur. Binəqədi rayonunun Biləcəri qəsəbəsində 25 fevral 2014-cü ildə istifadəyə verilmiş Milli Qəhrəmanlar parkında Fərhad Hümbətovun da büstü ucaldılmışdır.